# Biz haqlıyıq, biz zəfər çalacağıq!

***Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü davam edir. Baxmayaraq ki, Yerevanda keçirilən Avrasiya İqtisadi Birliyinin hökumətlərarası şuranın iclasında təcavüzkar ölkənin baş naziri Nikol Paşinyan “Ermənistan Qarabağla bağlı sülh danışıqlarına başlamağa hazırdır” – deyərək ağ bayraq qaldırdı. Həmin tədbirdə bildirdi ki, münaqişənin sülh yolu ilə həll olunması prinsipinə sadiqdirlər: “Son bir neçə gündə ATƏT-in həmsədr ölkələrinin prezidentləri və xarici işlər nazirlərinin verdiyi açıqlamalara uyğun olaraq sülh prosesini davam etdirməyə hazırıq”, – deyə Paşinyan, guya, atəşin dayandırılmasına cəhd göstərdiyini nümayiş etdirsə də, daxilindəki faşizm xisləti öz ampluasında imiş. İki il danışıqlar prosesindən imtina edən Paşinyan bu dəfə prosesin baza prinsipləri, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında yenidən davam etdiriləcəyini vəd verdi. Azərbaycana qarşı iddia və hikkələrlə danışan Nikol Paşinyan artıq diz çökmək anının yaxınlaşdığını hiss edəndə riyakarlığa əl atmaqdan başqa yol tapmadı. Çıxış yolunu “sülh danışıqlarına başlamaqda” tapan Nikol Paşinyan bu yolla humanitar yardım adı ilə əlavə silah-sursat gətirilməsinin yeganə yol olduğunu düşündü.***



# Azərbaycan Ordusunu heç bir qüvvə saxlaya bilməz

### *Ermənistan atəşkəsi niyə pozdu?*

Nikol Paşinyanın yalvarışlarından sonra Rusiya Xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında humanitar məqsədlə atəşkəs haqqında razılaşma imzalanması barədə artıq hər kəsin məlumatı var. Xatırladaq ki, tərəflərin qəbul etdiyi bəyanata görə, atəşkəs oktyabrın 10-da, saat 12 -00-dan humanitar məqsədlə, cəsədlərin yığılması və əsirlərin dəyişdirilməsi üçün, Beynəlxalq Qızıl Xaç Komitəsinin meyarları nəzərdə tutularaq qüvvəyə mindi. Bununla yanaşı, Azərbaycan və Ermənistan ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə, münaqişənin tənzimlənməsinin baza prinsiplərinə əsaslanaraq, sülh yolu ilə həll edilməsi üçün “substansiyalı danışıqlara” keçəcəkdilər.

Bəs nə baş verdi? Niyə Ermənistanın baş naziri yalvara-yalvara nail olduğu atəşkəsə riayət etmədi? Artıq beynəlxalq ictimaiyyətə də bəllidir ki, atəşkəs Ermənistana sərf etmir. Çünki sentyabrın 27 – dən başlayan döyüşlərdə Ermənistan tərəfi həm canlı, həm də texnika sarıdan xeyli ağır itkilər verib. Döyüş bölgələrində olan əcnəbi jurnalistlərin yazdıqlarına görə, 4 mindən çox erməni hərbçisinin meyitləri yol kənarlarında, səngərlərdə, dərələrdə qalıb. Məsələn, Almaniyanın aparıcı “Bild” nəşrinin baş redaktorunun müavini Pol Rontshaymer özünün “Twitter” səhifəsində yazıb ki, ermənilər 4 min nəfər itirib. Bunu bölgədə olan digər əcnəbi jurnalistlər də etiraf ediblər. Söhbət yalnız Ermənistanın itirdiyi canlı qüvvədən gedir. Onların hər birinin doğmaları, yaxınları, valideynləri hər gün Ermənistan rəhbərliyindən məlumat gözləyirlər. İşğalçı ölkənin rəhbərliyi yaxşı bilir ki, bu qədər hərbçinin ölümü barədə məlumat versə, həmin gün valideynlər Yerevanın altını-üstünə çevirəcəklər. Ona görə də valideynlərə “övladlarınız cəbhə bölgəsindədir” – deyərək, yalan məlumatlar verirlər.

Bundan əlavə, atəşkəs bərpa olunan kimi, erməni ictimaiyyəti Azərbaycan Ordusunun işğal etdiyi ərazilər, yüksəkliklər barədə məlumat əldə edəcəkdi. Söz yox ki, biz düşmən əsarətində olan öz ərazilərimizi azad edirik. Müxtəlif mənbələrin verdikləri məlumata görə, Ermənistan siyasi rəhbərliyi öz ölkəsinin “qələbəsini” əks etdirən videogörüntülər yaymaq barədə göstəriş verib və buna əməl olunur. Paşinyan bu vasitələrlə öz xalqını “cəbhədəki möhtəşəm qələbələri” ilə hələ də aldadır. Ona görə də atəşkəs onlara sərf etmirdi. Hətta ağ bayraq qaldırıb erməni hərbçilərinin meyitlərini yığan özlərinə məxsus tibbi yardım maşınlarını da atəşə tutdular. Bununla atəşkəs rejiminin Azərbaycan Ordusu tərəfindən pozulması barədə beynəlxalq aləmdə rəy formalaşdırmaq istəyirdilər. Ancaq buna da nail ola bilmədilər. Çünki artıq beynəlxalq ictimaiyyət də erməni vandalizmi ilə yaxından tanışdır.

### *Üç cəbhədə qazanılan qələbə*

Azərbaycan Ordusu 2016- cı ilin Aprel, 2018-ci ilin Günnüt və 2020- ci ilin Tovuz əməliyyatlarında olduğu kimi, sentyabrın 27-də də Ermənistan tərəfindən başlanılmış genişmiqyaslı təxribatlarda düşməni acınacaqlı məğlubiyyətə uğratdı. Azərbaycan bu dəfə həm hərbi, həm diplomatik, həm də informasiya cəbhələrində Ermənistana qalib gəldi. Rəşadətli ordumuzun döyüş meydanındakı qələbələri bizə diplomatik və informasiya sahələrində əlavə üstünlüklər qazandırdı. Bu dəfə danışıqların şərtlərini Azərbaycan tərəfi müəyyən edir. Diplomatik qələbəmiz Ermənistan baş nazirinin “Ermənistan Qarabağla bağlı sülh danışıqlarına başlamağa hazırdır”– deməsində də özünü büruzə verdi. İki il müddətində danışıqlar prosesinə yaxın gəlməyən Nikol Paşinyanın sülh danışıqlarına razılıq verməsi işğalçı ölkənin həm də diplomatik cəbhədə məğlubiyyəti demək idi. Halbuki Ermənistan rəhbərliyi həmin prinsipləri rədd edirdi. Bununla yanaşı, Ermənistan tərəfi danışıqlar prosesinin qondarma Dağlıq Qarabağ respublikası ilə aparılmasını iddia edirdi. Ancaq Paşinyan Azərbaycan Ordusu qarşısında tab gətirə bilməyəcəyini görüb danışıqlar prosesinin Ermənistanla Azərbaycan arasında aparılması zərurətini dərk etdi. Bu, əslində, dövlət başçımızın sülh danışıqlarının əvvəlki formatda saxlamaq mövqeyinin dəstəklənməsi idi.

Artıq Paşinyan dərk etməyə başladı ki, Azərbaycanın qarşısında duruş gətirə bilməyəcək. Bundan əlavə, dövlətimizin başçısı yerli telekanallara, həmçinin “Rossiya 1” –nin telekanalında yayımlanan “60 dəqiqə” proqramına, “Əl-Cəzirə”, “Əl-Ərəbiyə”, “TRT Haber”, “Pervıy Kanal”, CNN Türk ,“Euronews”, “CNN International”, “Sky News” və “RBK” telekanallarına verdiyi müsahibələrində Dağlıq Qarabağ münaqişəsinin tarixi, Ermənistanın 30 ildir davam etdirdiyi işğalçılıq siyasəti, bu müddət ərzində respublikamıza vurduğu zərər, mülki əhalinin qətlə yetirilməsi və digər terror aktları barədə müfəssəl məlumat verdi. Dünya ictimaiyyəti Ermənistanın faşizm ideologiyasına sadiqliyi və faşist xisləti barədə məlumatlandırıldı. Bu da ölkəmizin informasiya müstəvisində üstünlüyü idi.

### *Status-kvo dəyişdirildi*

Həm təcavüzkar ölkənin baş naziri Nikol Paşinyan, həm də onun sələfləri işğala əsaslanan mövcud staus-kvonu saxlamaq üçün min bir oyundan çıxırdılar. Bu oyunların nəticəsi idi ki, Ermənistana dəstək göstərilir və danışıqlar prosesi imitasiya olunmuş əsasda aparılırdı. Məqsəd tədricən Azərbaycan torpaqlarının Ermənistan tərəfindən ilhaqına nail olmaq idi. Beynəlxalq təşkilatlar, o cümlədən münaqişənin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupu da status- kvonun saxlanılmasının qeyri – mümkünlüyünü etiraf edirdilər. Ancaq özlərində cürət tapıb bu barədə qəti mövqelərini bildirmirdilər. Sonda isə otuz illik problemi Prezident İlham Əliyev bir həftə ərzində həll etdi.

Otuz il ərzində qurulmuş və daim möhkəmləndirilmiş bu status-kvo sistemi Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi nəticəsində dağıldı, Azərbaycan işğalla heç zaman barışmayacağını sübut etdi. Status-kvo dəyişdi, eləcə də, hərbi və siyasi şərtləri indi Azərbaycan diktə edir. Prezident İlham Əliyev qəti və hücum diplomatiyasına əsaslanan gedişlərlə regionun geosiyasi mənzərəsini də dəyişir. Dövlətimizin başçısı xalqa müraciətində də bu barədə qəti mövqeyini bildirdi: “Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status - kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini. Özü də o bölgənin relyefi təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də 30 il ərzində orada beton istehkamlar qurulub. Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti. İndi deyirlər yeni təmas xətti olacaq. Olmayacaq! Biz torpaqlarımızı geri alacağıq. Hansı təmas xəttindən söhbət gedə bilər?! Yoxdur bu, biz dağıtmışıq, biz etmişik, iradə göstərmişik, güc göstərmişik, xalqımızın iradəsinə arxalanmışıq və bu gün qələbə çalırıq”.

### *“Bizim müharibəmiz mülki vətəndaşlarla deyil”*

Prezident İlham Əliyev əzmli, qətiyyətli siyasətçi, humanist dövlət başçısı olduğunu bir daha sübut etdi. Dövlətimizin başçısı dəfələrlə erməni xalqına müraciət edərək deyib ki, bizim dinc əhali ilə işimiz yoxdur. Bizim müharibəmiz mülki vətəndaşlarla deyil. Biz öz ərazilərimizdə, Azərbaycanın ərazi bütövlüyü uğrunda işğalçıya qarşı vuruşuruq. Hətta Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə məruz qalan Prezident İlham Əliyev öz prinsipiallığını və qəti əzmini bir daha nümayiş etdirir, mövqeyindən kənara çəkilmir, bu təzyiqlərə mərd-mərdanə sinə gərməkdədir.

Azərbaycanın milli maraqları Prezident İlham Əliyev üçün ən ali dəyərlərdir. Ermənistanın baş naziri isə sanki öz xalqına, öz vətəndaşlarına qənim kəsilib. O, bilə-bilə ki, Azərbaycan Ordusu onlardan qat-qat güclüdür, ən müasir silahlarla silahlanıb və Vətənin hər qarış torpağından ötrü canından keçməyə hazırdır, yenə də öz vətəndaşlarını, əli silah tuta bilməyən gəncləri ölümə göndərir. Artıq ordumuz qarşısında aciz qalan Ermənistanın baş naziri mülki əhalini hədəfə alıb. Bir tərəfdən, sülh danışıqlarına yalvaran, digər tərəfdən mülki şəxsləri hədəfə alan, onlara qarşı terror aktları törədən Paşinyanın nasist babasının yolunu davam etdirdiyinə heç bir şübhə yoxdur. Hətta utanmaz-utanmaz bunu etiraf da edir. O, “Euronews” telekanalına müsahibə verərkən jurnalistin “Siz mülki əhalini də vurursunuz”-- sualına həyasızcasına “Bəli, vururuq. Onları diz çökdürmək istəyirik” cavabını verib.

Qondarma Dağlıq Qarabağ respublikasının qondarma prezidenti də mülki əhalini hədəfə almaqla insanlarda qorxu, təlaş yaratmaq istədiklərini, Azərbaycandan bu yolla qisas aldıqlarını etiraf edib. Son 13 gündə erməni vandalları 41 mülki şəxsi qətlə yetirmiş, 200 nəfərdən çoxunu isə yaralamışlar. Halbuki, bu, beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətdir. Artıq Ermənistan tərəfi bu cinayəti açıq şəkildə törədir. Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan Gəncə və Mingəçevir şəhərlərini ağır artilleriya qurğularından və raketlərdən mütəmadi atəşə tutmaq, dinc əhalini, uşaqları qətlə yetirmək, yaşayış sahələrini dağıtmaq faşistlərə xas qəddarlıqdır. İnsanlıq əleyhinə yönəlmiş çirkin əməllərindən əl çəkməyən Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini, Cenevrə Konvensiyasını, o cümlədən beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozmasına dünya birliyində susqunluq bu norma və prinsiplərin əhəmiyyətsiz olduğundan xəbər verir. Əgər beynəlxalq hüquq normaları ciddi və əhəmiyyətlidirsə, bəs onda 30 ildir Ermənistanın buna qarşı hörmətsizliyinə və saymazlığına niyə münasibət bildirilmir?

Dövlətimizin başçısı Rusiyanın RBK televiziya kanalına müsahibəsində də qəti mövqeyini bildirdi: “Biz axıra qədər gedəcəyik. Biz dayanmamışıq. Əgər erməni tərəfi atəşkəs rejiminə sadiq qalarsa, onda, dünən dediyim kimi, siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Buna görə biz istənilən halda, axıra qədər gedəcəyik”.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***